**UOT: 75**
https://doi.org/10.59849/2409-4838.2026.2.28

# "LİBRA" ART QRUPU: MÜASİR AZƏRBAYCAN İNCƏSƏNƏTİNDƏ TARAZLIQ AXTARIŞLARI

**Məhbarə Tahir qızı Abbasova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan
mehbara.abbasova@gmail.com

*Məqalə müasir Azərbaycan təsviri sənətində qısa müddətli, lakin ideya əsaslı birlik modeli baxımdan diqqətəlayiq hadisə olan "Libra" art qrupunun yaradıcılıq fəaliyyətinə həsr olunmuşdur. Tədqiqatın əsas obyekti qrupun yeganə reallaşmış layihəsi – "5 otaq" adlı sərgidir. Məqalədə qrupun konseptual əsasını təşkil edən "tarazlı" (libra) anlayışı bədii-fəlsəfi kateqoriya kimi təhlil edilir, vizual balansın forma, məkan və qavrayış səviyyəsində təzahürləri araşdırılır. Əsas mənbə kimi sərgi kataloqu üçün sənətşünas Dilarə Vahabova tərəfindən yazılmış kurator mətni, media resursları və rəssamların retrospektiv müsahibələri istifadə edilmiş, formal-stilistik və analitik yanaşma tətbiq olunmuşdur. Nəticədə "Libra" art qrupunun müasir Azərbaycan incəsənətində kollektiv yaradıcılığın intellektual modelini təmsil etdiyi qənaətinə gəlinir.*

***Açar sözlər:*** *"Libra" art qrupu, müasir Azərbaycan incəsənəti, art qrup, vizual balans, "5 otaq" sərgisi*

## GİRİŞ

### 2010-cu illərin mədəni konteksti

2010-cu illərin ortalarında Azərbaycan müasir incəsənət mühiti institusional konsolidasiya və konseptual transformasiya mərhələsinə qədəm qoymuşdur. 2000-ci illərdə formalaşmağa başlayan müasir incəsənət infrastrukturu bu dövrdə daha strukturlaşdırılmış və beynəlxalq yönümlü xarakter almışdır. Bu mərhələdə institusional platformaların da rolu xüsusilə artmışdır. YARAT Müasir İncəsənət Məkanı sərgilər, təhsil proqramları və beynəlxalq əməkdaşlıqlar vasitəsilə yerli sənət mühitini qlobal kontekstə daxil edirdi [11]. Paralel olaraq, Bakı Müasir İncəsənət Muzeyi və Azərbaycan Milli İncəsənət Muzeyi kimi dövlət qurumları da müasir bədii sərgilərə daha açıq yanaşmağa başladı. Alüminium Müasir İncəsənət Biennalesinin keçirilməsi də məhz bu dövrə təsadüf edir.

Bununla yanaşı, 2010-cu illərin ortalarında müstəqil təşəbbüslərin və art-qrupların fəaliyyətinin yenidən aktuallaşdığı müşahidə olunur. Əgər 1990-2000-ci illərdə art-qruplar alternativ və bəzən marginal mövqedə fəaliyyət göstərirdilərsə, yeni mərhələdə kollektiv strategiyalar daha çox konseptual əməkdaşlıq, layihə əsaslı fəaliyyət və qurumlarla əməkdaşlıq formatında təzahür edirdi. Bu proses qlobal müasir incəsənət sistemində kollektiv təcrübələrin yenidən nəzərdən keçirilməsi tendensiyası ilə səsləşir [6].

2010-cu illərin ortalarında Azərbaycan sənət mühitində şəhər transformasiyası, social identiklik, mədəni yaddaş və qloballaşma kimi mövzular aktuallaşmışdır. Bakı şəhərinin sürətli urban inkişafı və mədəni mühitin dəyişməsi rəssamların vizual refleksiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu isə yerli mühitin qlobal problemlərlə dialoqda təqdim olunmasına şərait yaratmışdır.

Məhz belə bir institusional və konseptual transformasiya mərhələsində "Libra" art qrupu formalaşmışdır. Qrupun yaranması təsadüfi deyil, əksinə, müasir incəsənət mühitində kollektiv fəaliyyət formalarının yenidən aktuallaşmasının və fərdi rəssam mövqeləri arasında dialoqa ehtiyacın nəticəsi kimi qiymətləndirilə bilər [3].

"Libra" art qrupu 2015-ci ildə rəssam Malik İsmayılzadənin rəhbərliyi ilə təsis edilmiş və Anar Qəmbərli, Arzu Rzayev, Namiq İsmayılzadə və Nazim Şahverdiyevdən ibarət olmuşdur. Qrupun

adı latıncadan tərcümədə "tarazlıq", "balans", "çəki" mənalarını ifadə edir və bu anlayış yaradıcı qrupun əsas ideya xəttini müəyyənləşdirirdi. Fəaliyyəti qısaömürlü olsa da, konseptual bütövlüyü və nəzəri əsaslandırılmış mövqeyi onu müasir Azərbaycan təsviri sənəti kontekstində elmi təhlil üçün actual edir. Qrupun ilk və yeganə layihəsi 2015-ci ilin fevral ayında Muzey Mərkəzinin İncəsənət Qalereyasında keçirilmiş "5 otaq" sərgisi olmuşdur. Sərginin adı beş rəssamın fərdi ekspozisiya məkanlarının vahid konseptual çərçivədə birləşdirilməsini simvolizə edir və layihə qrupun yaradıcılıq hesabatı kimi çıxış edirdi. Müxtəlif bədii üsluba və dünyagörünüşünə malik rəssamların seçimi məqsədyönlü xarakter daşıyaraq "Libra"nın tarazlıq ideyasını vizual və məzmun baxımından reallaşdırdı.

"Libra"nın rəssamları "Qrup üzvləri kollektivə münasibətdə mərkəzdənkənar qüvvənin təsirinin altına düşmədikdə, həm də eyni zamanda yoldaşlarını da sıxmadıqda, onlar yaradıcılıqda beş yol arasında tarazlığı yaratmağı və saxlamağı bacardılar". Bu prinsip sərginin kurator konsepsiyası və ekspozisiya həllində müşahidə olunan struktur balans vasitəsilə reallaşmışdır. Buna baxmayaraq, "Libra" art qrupunun fəaliyyəti indiyədək sistemli elmi təhlil predmetinə çevrilməmişdir. Mövcud materiallar əsasən media xəbərləri və sərgi kataloqu ilə məhdudlaşır, qrupun yaradıcılıq modeli isə kollektiv müəlliflik, sabit təşkilati strukturun olmaması və konseptual platforma kontekstində ayrıca araşdırılmamışdır. Bu məqalə məhz həmin boşluğu doldurmağı, "Libra"nın fəaliyyətini müasir Azərbaycan incəsənətində kollektiv özünü-təşkil forması kimi nəzəri çərçivədə təhlil etməyi qarşıya məqsəd qoyur.

Tədqiqatın obyekti 2015-ci ildə yaradılmış "Libra" art qrupunun fəaliyyəti, predmeti isə qrupun yeganə layihəsi olan "5 otaq" sərgisində kollektiv yaradıcılığın konseptual və təsviri ifadə formalarıdır. Tədqiqatın məqsədi "Libra" art qrupunun fəaliyyətini müasir Azərbaycan incəsənətində kollektiv özünü-təşkil modeli kimi nəzəri baxımdan təhlil etmək və "tarazlıq" anlayışının bədii-fəlsəfi kateqoriya kimi vizual strukturlarda necə təzahür etdiyini müəyyənləşdirməkdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir: 2010-cu illər Azərbaycan incəsənətində kollektiv təşəbbüslərin kontekstual təhlili; "5 otaq" sərgisinin konseptual əsaslarının araşdırılması; vizual balansın forma, məkan və qavrayış səviyyəsində interpretasiyası; fərdi üslub və kollektiv yaradıcılıq münasibətinin təhlili; "Libra"nın kollektiv yaradıcılıq modeli kimi nəzəri diskursda yerləşdirilməsi.

Araşdırmanın əsas bazasını "5 otaq" sərgisinin kataloqu üçün sənətşünas Dilarə Vahabova tərəfindən qələmə alınmış kurator mətni təşkil edir. Əlavə məlumatlar sərginin mediada işıqlandırılması ilə tamamlanmışdır: Fariz Hüseynov Muzey Mərkəzində keçirilmiş sərgi haqqında təhlilini təqdim etmişdir [7], Trend.az xəbər portalında isə sərginin Azərbaycan rəssamlarının reallıq və fantaziya arasında qurulan konsepsiyasına diqqət çəkilmişdir [12], Day.az saytında sərgi haqqında foto və qısa icmal təqdim olunmuşdur [13], RegionPlus saytında Valentina Reznikova tərəfindən tarazlıq və vizual kompozisiya aspektləri nəzərdən keçirilmişdir [10]. Bu mənbələr sərginin konseptual və vizual xüsusiyyətlərinin analitik təhlili üçün əsas baza yaratmışdır.

## ƏSAS HİSSƏ

Araşdırmada formal-stilistik və konseptual təhlil, həmçinin vizual qavrayış nəzəriyyəsinə əsaslanan analitik yanaşma metodlarından istifadə edilmişdir. Qrupun yaradıcılığı art qrupların özünüifadə modeli kimi kontekstual şəkildə qiymətləndirilmiş, sərgidə təqdim olunan əsərlərin vizual balans və bədii ifadə vasitələri sistemli şəkildə təhlil olunmuşdur. Seçilmiş metodlar sərginin vizual strukturu ilə ideya proqramı arasındakı əlaqəni müəyyən etməyə imkan verir. Vizual qavrayışın təhlilində Geştalt nəzəriyyəsinin bütövlük, tarazlıq və kompozisiya prinsiplərinə istinad edilmişdir. Eyni zamanda, Rudolf Arnheimin vizual balansın psixoloji qavrayış mexanizmləri ilə bağlı yanaşmalı detodoloji baza kimi nəzərə alınmışdır. Bu çərçivə əsərlərdə formaların yerləşməsi, ritmik quruluş və semantik gərginliyin tamaşaçı şüurunda necə formalaşdığını sistemli şəkildə şərh etməyə imkan verir [1, 9].

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, “Libra” art qrupunun fəaliyyəti ilk dəfə sistemli şəkildə kollektiv yaradıcılıq nəzəriyyəsi kontekstində təhlil edilir və onun fəaliyyəti digər Azərbaycan art qrupları ilə müqayisədə estetik hadisə kimi deyil, intellektual özünü-təşkil modeli kimi şərh olunur. Bununla yanaşı, tədqiqatın məhdudiyyəti mənbə bazasının əsasən sərgi kataloqu, media materialları və müsahibələrlə məhdudlaşmasıdır ki, bu da qrupun daxili yaradıcılıq mexanizmlərinin daha geniş arxiv materialları əsasında araşdırılmasını gələcək tədqiqatlat üçün açıq saxlayır.




**Şəkil 1.** “5 otaq” sərgisinin posteri

Tədqiqat nəticəsində qrupun yaradıcılıq fəaliyyəti ilə bağlı aşağıdakı əsas məqamlar müəyyən edilmişdir:

***“Libra” art qrupunun konseptual əsasları: tarazlıq fəlsəfəsi***

Qrupun adı onun yaradıcılıq proqramının ideya əsasını açıq şəkildə ifadə edir. Bu anlayış “Libra” art qrupunun yaradıcılığında forma ilə azadlıq, ideya ilə təsviri ifadə vasitələri arasında qurulan balans kimi şərh olunur. Burada tarazlıq statik vəziyyət deyil, əksinə, daim axtarılan və yenidən qurulan dinamik proses kimi çıxış edir. Kurator mətnində vurğulandığı kimi, tarazlıq yalnız formal simmetriya ilə məhdudlaşmır; o, şaquli və üfüqi münasibətlərin, rəng çalarlarının, miqyas və proporsiyaların qarşılıqlı əlaqəsində formalaşır. Bu baxımdan “Libra” qrupunun əsərlərində vizual harmoniya psixoloji qavrayış səviyyəsində yaranır və tamaşaçının düşüncəsində assosiativ proseslər oyadır.

Tədqiqatın formal-üslubi və vizual qavrayış nəzəriyyəsinə əsaslanan analitik yanaşmanın seçilməsi metodoloji yenilik təşkil edir, çünki bu üsul kollektiv yaradıcılıq nümunələrinin həm təsviri, həm də məzmun səviyyəsində sistemli təhlilinə imkan verir. Bu metod qrupun əsərlərindəki balans və harmoniya prinsiplərinin tamaşaçı qavrayışına təsirini dərin təhlil etməyə imkan yaradır [Şəkil 1-3].

***Vizual balans və qavrayış problemi***

Araşdırılan materiallar göstərir ki, “Libra” art qrupunun yaradıcılığında vizual balans fiziki müstəvidə deyil, qavrayış səviyyəsində mövcuddur. Cizgi və ləkələrin kətan üzərində yerləşməsi öz-özlüyündə tarazlıq yaratmır; bu balans tamaşaçının şüurunda formalaşan təsviri bərabərlik hissinin nəticəsidir. Bu zaman “yıxılma”, “uçuş”, “hərəkət” kimi assosiasiyalar meydana çıxır və əsərin semantik məkanı genişlənir. Formaların eyniliyi və tipoloji oxşarlığı ilk baxışda məkan assosiasiyasını yaratsa da, daha dərin qavrayış səviyyəsində bu oxşarlıq hərəkət və dinamika hissi ilə kompensasiya olunur. Beləliklə, “Libra” qrupunun əsərləri statik deyil, daxili gərginliyə malik vizual strukturlar kimi çıxış edir.

***Fərdi üslub və kollektiv harmoniya***

Qrup daxilində hər bir rəssamın fərdi dünyagörüşü və bədii dili qorunub saxlanmışdır. Kollektiv yaradıcılıq fərdi üslubların ləğvi deyil, onların ümumi ideya çərçivəsində harmonik şəkildə mövcudluğunu nəzərdə tutur. Bu xüsusiyyət “Libra” art qrupunu formal birlikdən daha çox ideya əsaslı yaradıcı model kimi xarakterizə etməyə imkan verir. Qrupun adı təsadüfi seçilməmişdi, Anar Qəmbərli tərəfindən təklif olunan bu ad, qrupun daxili fəlsəfəsinin təməlini təşkil edən “tarazlıq”

ideyasını simvolizə edirdi. Bu tarazlıq həm rəssamların fərdi üslubu ilə kollektiv ruhu arasında, həm də sənətin klassik kökləri ilə müasir eksperimentləri arasında qurulmuşdu.

"Libra" daxilində sənətə münasibət rəqabətdən uzaq, dialoq üzərində qurulmuşdur. Malik və Namiq İsmayılzadə ilə aparılan müzakirələrdə vurğulandığı kimi, "iki rəssamı yarışdırmaq mümkün deyil". Bu prinsip qrupun əsas hərəkətverici qüvvəsi idi. Üzvlər arasında qurulan yaradıcılıq dialoqu və daimi müzakirələr əsərlərin son formasına birbaşa təsir göstərsə də, hər bir rəssamın fərdi dəst-xətti toxunulmaz qalırdı. Mövzu seçiminə gəldikdə isə tam bir azadlıq hakim idi; sərbəst mövzu prinsipi rəssamlara heç bir çərçivəyə sığmadan öz daxili dünyalarını ifadə etmək imkanı verirdi.

Kollektiv yaradıcılıq fenomeni sənətşünaslıqda ayrıca istiqamət kimi tədqiq edilmişdir. H.Beker "İncəsənət dünyaları" (Art Worlds) konsepsiyasında incəsənəti fərdi aktdan çox, sosial əməkdaşlıq modeli kimi şərh edir. Müasir kuratorluq diskursunda isə kollektiv praktika institusional strukturlara alternativ forma kimi dəyərləndirilir. "Libra" art qrupunn fəaliyyəti müasir Azərbaycan incəsənətində kollektiv yaradıcılığın qısa müddətli, lakin ideya baxımından formalaşmış nümunəsi kimi dəyərləndirilə bilər. Yalnız bir layihə ilə təmsil olunması institusional davamlılığın zəifliyini göstərməklə yanaşı, yerli sənət mühitində qeyri-formal birliklərin qarşıladığı struktur çətinlikləri də üzə çıxarır.

"5 otaq" sərgisi fərdi yaradıcılıqların sadə birgə ekspozisiyası deyil, müxtəlif istiqamətlərin ümumi ideya çərçivəsində təqdiminə yönəlmiş təşəbbüs idi. Qrupun adında ifadə olunan "tarazlıq" prinsipi layihənin məzmununda reallıqla fantaziya, milli vizual elementlərlə modernist ifadə vasitələri, fərdi üslubla kollektiv təqdimat arasında münasibətin qurulmasında özünü göstəriridi. Bu səbəbdən sərgi vahid üslubi sistemdən çox, konseptual əsasda formalaşmış birlik modeli kimi dəyərləndirilə bilər.

Qrup üzvlərinin yaradıcılıq istiqamətləri arasında ciddi üslubi fərqlər mövcuddur. Məsələn, Malik İsmayılzadənin əsərlərində modernist deformasiya və ekspressiv plastika üstünlük təşkil edir (Şəkil 1). Namiq İsmayılzadənin əsərlərində isə dekorativ ritm, milli ornamentlər və konstruktiv quruluş daha qabarıqdır; bu xüsusiyyətlər onu Şərq estetikası ilə modernizm arasında yerləşdirir (Şəkil 2). Arzu Rzayev isə fiqurlu kompozisiyalarda sosial-psixoloji məzmunu ön plana çəkərək "sərt üslub" ənənəsinə yaxınlaşır. Nazim Şahın qrafik və qarışıq texnikada olan işlərində mifoloji və şaman motivlərinin üstünlük təşkil etməsi onun yaradıcılığını simvolik və çoxqatlı məna sisteminə bağlayır. Anar Qəmbərlinin tablolarında isə gündəlik həyatın fraqmentləri modernist koloristik həll və faktura vasitəsilə emosional dərinlik qazanır.



**Şəkil 1.** Malik İsmayılzadə. Adsız. 2013. Kətan, yağlı boya, 28x21 sm



**Şəkil 2.** Namiq İsmayılzadə. Armudlar. 2012. Kətan, yağlı boya, 90x85 sm



**Şəkil 3.** Arzu Rzayev. Təzə ay. 2013. Kətan, yağlı boya. 130x175 sm

"Libra" art qrupunun daxilində mövcud olan fərqliliklər onun formal üslubi eynilik üzərində qurulmadığını göstərir. Qrupu bir araya gətirən əsas amil ortaq konseptual mövqe və yaradıcılıq azadlığı prinsipi olmuşdur. Bu səbəbdən "Libra"nı hər hansı vahid üslub çərçivəsində deyil, ideya əsaslı yaradıcı art qrup modeli kimi xarakterizə etmək daha məqsədəuyğundur. Bununla belə, qrupun manifesti olmamış, konseptual proqramı davamlı platformaya və ya institusional struktura çevrilə bilməmiş, onun fəaliyyəti bir sərgi layihəsi ilə məhdudlaşmışdır ki, bu da Azərbaycan mədəni mühitində kollektiv təşəbbüslərin davamlılıq problemi kontekstində ayrıca diqqət tələb edir.

Bununla yanaşı, "Libra" art qrupunun davamlı struktur kimi formalaşmaması müəyyən suallar doğurur. Bu hal kollektiv təşəbbüslərin 2010-cu illər mədəni mühitində uzunmüddətli fəaliyyət göstərməsi üçün zəruri olan iqtisadi, kuratorial və təşkilati mexanizmlərin yetərincə formalaşmaması ilə izah oluna bilər. Eyni zamanda, sual yaranır: "Libra" konseptual qrup kimi davam etdirə bilərdimi, yoxsa onun mahiyyəti məhz situativ layihə olmaqdan ibarət idi? Bu məsələ kollektiv yaradıcılığın Azərbaycan kontekstində institusional perspektivləri baxımından ayrıca araşdırma tələb edir.

Ellen Mara de Vaxterin "Kollektiv sənət: yaradıcılıq əməkdaşlığı üzrə sənətçiləri baxışları" kitabında əməkdaşlıq sənətində tək bir ideya kimi deyil, həm də sosial və təcrübi fenomen kimi təhlil edilir. De Vaxterin kitabında XX əsrin ikinci yarısından etibarən art qrupların yaradıcılığının artan roluna diqqət çəkir və fərdi müəlliflik modelini – sənətşünaslıqda dominant olan "fərdi dahi" təsəvvürünü – çoxmüəllifli, ortaq təcrübələr və ünsiyyət prosesləri ilə əvəzləməyi təklif edir. Kitabda 25 beynəlxalq sənətçi qrupu və duetinin verdiyi müsahibələr əsasında əməkdaşlığın müxtəlif formaları, müəlliflik, etimad, qarşılıqlı dinləmə və konflikt həlli kimi məsələlər araşdırılır, bu da kollektiv

sənət təcrübəsinin yalnız estetik məhsul deyil, həm də dinamik sosial təcrübə olduğunu göstərir. Bu perspektiv “Libra” art qrupunun fəaliyyətini yalnız ekspozisiya layihəsi kimi deyil, həm də mədəni mühitdə kollektiv özünü-təşkilin kreativ mexanizmi kimi anlamamıza kömək edir [2].

Ketrin Cuffre “Kollektov yaradıcılıq: Cənubi Sakit okeanında incəsənət və cəmiyyət” nəzəri əsərində kollektiv yaradıcılığı fərdi istedadın toplusu kimi deyil, sosial münasibətlər sistemi daxilində formalaşan proses kimi izah edir. Müəllif göstərir ki, yaradıcılıq aktı konkret mədəni mühitdə qarşılıqlı asılılıqlar, əməkdaşlıq mexanizmləri və ictimai gözləntilər çərçivəsində reallaşır. Cuffreyə görə, kollektiv sənət təcrübəsində müəlliflik anlayışı sabit və monolit deyil; o, iştirakçılar arasında bölüşdürülən və davamlı danışıqlar prosesində formalaşan dinamik strukturdur [5].

Bu yanaşma “Libra” art qrupunun fəaliyyətini şərh etmək üçün məhsuldar nəzəri baza təqdim edir. Qrup daxilində fərdi üslubların qorunması ilə yanaşı, ortaq sərgi məkanında formalaşan qarşılıqlı təsir mexanizmi kollektiv yaradıcılığın sosial xarakterini təmsil etdirir. Beləliklə, “Libra” fenomeni yalnız estetik deyil, həm də sosial struktur daxilində təşkil olunan yaradıcılıq modeli kimi qiymətləndirilə bilər. Qrup situativ təşəbbüs olsa da, müasir Azərbaycan təsviri sənətində kollektiv təcrübələrin nəzəri təhlili üçün önəmli presedentdir.

## YEKUN NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, “Libra” art qrupu və “5 otaq” sərgisi müasir Azərbaycan təsviri sənətində vizual balans anlayışının konseptual interpretasiyası baxımından əhəmiyyətli hadisədir. Qrupun yaradıcılığı epizodik olsa da, forma və ideya arasında tarazlıq axtarışını əsas yaradıcılıq prinsipi kimi təqdim edir. Malik İsmayılzadənin də qeyd etdiyi kimi sənətdə var olmaq üçün fərdi yaradıcılıq enerjisi və peşəkar yanaşma daimi olmalıdır. “Libra” qrupu ölkənin müasir sənətşünaslığında birlikdə yaradıcılığın mümkünlüyünü və bu birliyin içindəki fərdi azadlığın dəyərini sübut edən mühüm bir təcrübə kimi qalmaqdadır.

Beləliklə, Azərbaycan müasir incəsənətində kollektiv təşəbbüslər ardıcıl estetik məktəb formalaşdırmasa da, onlar hər mərhələdə institusional boşluqların kompensasiya mexanizmi kimi çıxış etmişdir. “Libra” art qrupu bu xəttin davamı olmaqla yanaşı, kollektiv yaradıcılığı sosial aksiya modelindən daha çox intellektual-estetik balans modeli istiqamətində inkişaf etdirmişdir.

Tədqiqat həmçinin təcrübi əhəmiyyət kəsb edir: nəticələr sərgilərin kuratorluğu, kollektiv yaradıcılığın təşkili və ölkəmizdə fəaliyyət göstərən art qrupların araşdırılması üçün nəzəri əsas yaradır. Bu iş yerli və beynəlxalq mühitdə müasir Azərbaycan incəsənətinin kollektiv təcrübələrinin anlaşılmasına töhfə verir. Bununla belə, “Libra” art qrupunun fenomeni davamlı estetik məktəb formalaşdırmaqdan daha çox, kollektiv təşəbbüslərin struktur həssaslığını nümayiş etdirən hadisə kimi qiymətləndirilə bilər.

## ƏDƏBİYYAT


1. Arnheim, R. Art and Visual Perception. - University of California Press, 1974. - 508 p.
2. De Wachter E.M. Co-Art: Artists on Creative Collaboration. – Phaidon Press, - 2017. – 240 p.
3. Əsgərova X. XX əsr Azərbaycan boyakarlığının inkişafı. – Bakı: ADNSU-nin mətbəəsi, - 2015. – 188 s.
4. Galimberti J. Individuals against Individualism: Art Collectives in Western Europe (1956-1969). - Liverpool University Press, - 2017. – 363 p.
5. Giuffre K. Collective Creativity Art and Society in the South Pacific. -London: Routledge, 2009 – 182 p.
6. Groys B.Going Public. – StenbergPress, - 2010. – 168 p.
7. Hüseynov F. Muzey Mərkəzində “5 otaq” sərgisi. // Mədəniyyət. - 2015, 20 fevral
8. Kataloq, 2015 // 5 otaq. Libra
9. Koffka, K. Principles of Gestalt Psychology. – London: Routledge, 2013 – 732 p.

10. Reznikova V. Tarazlığın "5 otağı". // RegionPlus. - 2015, 10 mart
11. Yarat müasir incəsənət məkanı. [Elektron resurs] / URL: https://www.yarat.az/index.php?lang=az&page=17&yrtMaincatID=18&yrtSubcatID=20
12. Бабаева Дж., Гулиев А., Шапиро К. "5 комнат" азербайджанских художников - между реальностью и вымыслом // Trend - 2015, 20 февраля.
13. В Баку открылись "5 комнат" // Day.az. - 2015, 20 февраля.
14. Даими Т. Изобразительное искусство Азербайджана конца II начала III тысячелетия. – 2001.
15. Исаева Х. Основные этапы формирования молодежной субкультуры в Азербайджане (исторический аспект). KANT Social Sciences & Humanities, - 2022, 9(1) – p. 81-87
16. Мир-Багирзаде Ф. Художественная группа «Либра». - 2015.

## "LIBRA" ART GROUP: PURSUITS OF BALANCE IN CONTEMPORARY AZERBAIJANI ART

**M.T. Abbasova**

The article is devoted to the creative activity of the "Libra" art group, a brief-lived yet conceptually significant phenomenon in contemporary Azerbaijani visual art. The main object of study is the group's only realized project the exhibition titled "5 Rooms." The article analyzes the concept of "balance" (libra), which forms the conceptual basis of the group, as an artistic-philosophical category, and examines manifestations of visual balance at the levels of form, space, and perception. The main sources include the curator's text written by art historian Dilara Vahabova for the exhibition catalog, media resources, and retrospective interviews with the artists; formal, stylistic, and analytical approaches were applied. The study concludes that the "Libra" art group represents an intellectual model of collective creativity in contemporary Azerbaijani art.

**Keywords:** *Libra art group, contemporary Azerbaijani art, art groups, visual balance, "5 Rooms" exhibition.*

## ГРУППА "ЛИБРА": ПОИСКИ РАВНОВЕСИЯ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ИСКУССТВЕ

**М.Т. Аббасова**

Статья посвящена творческой деятельности арт-группы «Либра», которая является кратковременным, но концептуально значимым явлением в современном азербайджанском изобразительном искусстве. Основным объектом исследования является единственный реализованный проект группы выставка под названием «5 комнат». В статье анализируется понятие «равновесие» (libra), лежащее в основе концепции группы, как художественно-философская категория, а также исследуются проявления визуального баланса на уровне формы, пространства и восприятия. В качестве основных источников использованы кураторский текст искусствоведа Диларэ Вахабовой для каталога выставки, медиа-ресурсы и ретроспективные интервью с художниками; применены формальный, стилистический и аналитический подходы. В результате делается вывод, что арт-группа «Либра» представляет интеллектуальную модель коллективного творчества в современном азербайджанском искусстве.

**Ключевые слова**: *арт-группа Либра, современное азербайджанское искусство, арт-группы, визуальный баланс, выставка «5 комнат».*